**Gəray Aydın oğlu Əliyev**
**Sumqayıt Dövlət Universiteti, doktorant**
**E-mail: gerayaliyev1907@gmail.com**
**UOT: 336.1:336.7:336.77; JEL: E44; F65; G21; G32; P34**

# Real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin edilməsinə nəzəri-konseptual yanaşmalar

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir şəraitdən real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin edilməsinə nəzəri – konseptual yanaşmaların müəyyənləşdirilməsidir. Bunun üçün real iqtisadiyyatın xüsusiyyətləri, inkişaf problemləri və bu proseslərdə kredit resurslarının rolu araşdırılmışdır. Bank-kredit müəassisələrinin real iqtisadiyyat sahələrinin inkişaf etdirilməsində və onların strateji fəaliyyət istiqamətlərinin reallaşdırılmasında rolu baxılmışdır. Layihələrin maliyyələşdirilməsi, investisiyaların cəlb olunması və ümumilikdə qarşıya qoyulan hədəflərin yerinə yetirilməsində kredit resurslarının əhəmiyyəti açıqlanmışdır. Bu proseslərdə bank müəssisələrinin funksiyaları, onların verə biləcəyi səmərə istiqamətində təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası kimi təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti elmi-praktiki nəticələrdən real iqtsiadiyyat sahələrinin maliyyələşdirilməsində və kreditləşdirilməsində bank müəssisələrinin rolunun açıqlanması və bununla bağlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsindən ibarətdir. Tədqiqatın nəticələri baxımından qeyd etmək olar ki, burada əsas etibarilə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafının sürətləndirilməsində bank müəssisələrinin rolu və onların əhəmiyyəti üzrə dövlət siyasətinin təkmilləşdirilməsi, müvafiq dəstək mexanizmlərinin işlənməsindən ibarətdir. Tədqiqatın orjinallığı və elmi yeniliyi ilə əlaqədar qeyd edək ki, qlobal təsirlər şəraitində və xüsusilə Covid-19 pandemiyasından sonraki dövrdə real iqtisadiyyat sahələrinin canlandırılması, iqtisadi geriliyin aradan qaldırılması və iqtisadi fəallığın artırılması üçün kredit resurslarına ciddi ehtiyac yaranmışdır və bu proseslərdə bank müəssisələrinin rolu əsaslandırılmışdır. Başlıca elmi yenilik kimi real iqtisadiyyat subyektlərinin inkişaf etdirilməsində kredit əlçatanlığının vacibliyi əsaslandırılmışdır və bununla bağlı müvafiq kredit xidmətləri paketinin formalaşdırılmasının xüsusi əhəmiyyəti qeyd olunmuşdur. İqtisadiyyatın şaxələndirilməsi, qlobal təhdidlər qarşısında daha səmərəli iqtisadi mexanizmlərin işlənməsinin müasir dövrdə kifayət qədər vacib olması bildirilmişdir. Baxılan problemlər üzrə tövsiyələrhazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:** real iqtisadiyyat; kredit resursları, bank müəssisələri, kredit əlçatanlığı, nəzəri–konseptual yanaşmalar, kredit xidmətləri, kredit xidmətlərinin səmərəliliyi.*

## Giriş

Qlobal təsirlərin artdığı bir şəraitdə və dünya ölkələrində iqtisadi inkişaf proseslərin maksimum yeni xarakter aldığı, xüsusilə postpandemiya şəraitdə iqtisadi drayverlərin yeniləndiyi, müasir çağırışların formalaşdırıldığı bir dövrdə bank müəssisələrinin rolu strateji əhəmiyyət kəsb edir. Heç də sirr deyil ki, 2009-cu illərin sonlarından başlayaraq, dünya maliyyə böhranının mənfi fəsadları nəticəsində investisiya resurslarının və maliyyə axınlarının hərəkəti zəifləmişdir. Bunlarla bağlı kifayət qədər məhdudlaşdırıcı mexanizmlər işə salınmış və demək olar ki, bir çox ölkə qrupları və maraqlı ölkələr arasında olan əlaqələrdə maliyyə resurslarının məhdudlaşdırıldığı indi də hiss olunmaqdadır. Bunun əsas səbəbi dünya səviyyəsində maliyyə resurslarının hərəkətində olan problemlərin yaranması ilə əlaqəlidir [6]. Yəni, iqtisadi proseslər dünya səviyyəsində makroiqtisadi və makromaliyyə meyarları ilə

bağlı olan məsələlərdə, qlobal təsirlərin, baş verən hadisələrin, dünya iqtisadiyyatındakı silkələnmələrin, enerjidaşıyıcılarla bağlı olan problemlərin, enerjidaşıyıcıların qiymətlərində olan qeyri-sabitliyin və eyni zamanda dünya səviyyəsində baş verən konfliktlərin, ölkələr arasında olan müharibələrin, dağıntıların bu işdə böyük ölçüdə mənfi təsiri olmuşdur [12].

**Real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığı**

Buna görə də, real iqtisadiyyat sahələrinin kreditləşdirilməsində, iqtisadi fəallığın təmin olunmasında, iqtisadiyyatın müxtəlif perspektiv sahələri üçün tələb oluna kredit resurslarının ayrılmasında bankların fəal iştirakının təmin edilməsi dövlətin pul – kredit siyasətində önəmli yerlərdən birini tutmalıdır [10]. Məlumdur ki, real iqtisadiyyat sahələrinin kreditləşdirilməsi həmişə mürəkkəb problemlərdən hesab olunmuşdur və hesab edirik ki, hazırda da belədir. Banklar böyük həvəslə öz resurslarını üzünmüddətli biznes layihələrinə və real iqtisadiyyat sahələrində aparılan islahatlara, investisiya – innovasiyayönümlü layihələrə yönəltmək üçün heç də tələsmirlər. Buna görə də, bankların bu məsələlərdə marağının təmin olunması, əsaslandırılmaların aparılması, yaxın perspektivdə gəlirləri göstərməklə biznes layihələrinin hazırlanması, potensial investorların bu işlərə cəlb edilməsi, dövlətlə – özəl sektor arasında olan əməkdaşlıq istiqamətlərinin məhsuldar fazaya keçirilməsi təmin edilməlidir. Qeyd edək ki, Covid-19 koronovirus pandemiyasının mənfi təsirindən yaranan yeni bir reallıqda isə bütün bunlar daha kəskin xarakter almışdır. Çünki Covid-19 pandemiyasının mənfi təsiri nəticəsində dünyanın əksər ölkələrində iqtisadiyyat zəifləmiş, kifayət qədər itkilər baş vermiş, məhsuldar iş yerləri itirilmiş, çoxlu sayda şirkət və firmalar, hətta maliyyə institutları, maliyyə təşkilatları, kredit təşkilatları iflasa uğramışdır [7]. Xüsusilə, xidmət sektorunun paraliç olması səbəbindən və pandemiya dövründə işləməməsinə görə, eyni zamanda dünyada son illərdə kifayət qədər gəlirli olan turizm sektorunun çökməsindən sonra hesab edirik ki, postpandemiya şəraitində bu istiqamətlərdəki inkişaf drayverləri önəmli rol oynayacaqdır. Məhz bu proseslərdə bank müəssisələrinin fəal iştirakını gözləmək olar [5]. Azərbaycanda da bununla bağlı reallıqlar diqqət çəkir, belə ki, Azərbaycan iqtisadiyyatı son illər kifayət qədər diversifikasiyalaşdırılma istiqamətinə meyillidir, məsələn, turizm sektoru da bu baxımdan önəmli rol oynayır. Artıq son 10 il ərzində qeyd etmək mümkündür ki, turizm Azərbaycanda dinamik inkişaf edən iqtisadiyyat sahələrindən biridir və bu sahəyə bank müəssisələrinin böyük marağının olduğunu da qeyd etmək olar. Bu ilk növbədə onunla əlaqəlidir ki, xidmət sahələrindən əldə olunan gəlirlər uzunmüddətli dövrü tələb etmir və qısa müddət ərazində gəlir götürmək mümkündür. Digər tərəfdən, turizm müəssisələrinin əksəriyyətinin fəaliyyətində mövsümi xarakteri var və onlar müəyyən dövr ərzində, yəni qısa müddət ərzində öz xərclərini, məsrəflərini hesablayaraq banklarla hesablaşmalar aparır və bu fəaliyyət qısamüddətli olduğundan banklar bu kimi müəssisələrə kredit verilməsində əlbəttə maraqlıdırlar. Digər tərəfdən, son illərdə Azərbaycanda iqtisadi inkişaf drayverləri baxımından turizm sektorunun inkişafında ölkənin əksər regionlarının potensialının ortaya qoyulması, xüsusilə qərb, cənub və şimal regionlarında turizm müəssisələrinin sayının artması bank müəssisələrinin bu sahəyə marağını yüksəltmişdir. Başqa bir önəmli məsələ turizmin işğaldan azad olunmuş ərazilərdə önəmli rol oynamasıdır. Artıq Qarabağda və Şərqi Zəngəzurda dirçəliş tədbirləri sırasında məhz turizmlə bağlı infrastruktur obyektlərinin və müəssisələrinin yaradılmasını görmək mümkündür. Hələ sovetlər birliyi dövründə kifayət qədər güclü potensiala malik olan Şuşa müalicə – rekreasiya sanatoriyasının yeni müasir texnologiyalar əsasında tikilməsi üçün artıq təməlqoyma mərasimi keçirilmişdir və dövlət başçısı bu mərasimdə iştirak edərək daha müasir, dünya səviyyəli turizm obyektinin, istirahət – sanatoriya kompleksinin tikiləcəyini qeyd etmişdir. Eyni zamanda, keçmiş SSRİ dövründə

kifayət qədər məhşur olan və keçmiş SSRİ-nin hər yerindən, həmçinin sosialist ölkələrindən Kəlbəcərdə olan "İstisu" kurortuna gələnlərin sayı daha çox olmuşdur.Məhz bu amillər nəzərə alınmaqla hazırda Kəlbəcərdəki İstisu kurortunun da bərpa edilməsi və yenidən qurulması üçün təməlqoyma mərasimi keçirilmişdir. Bir – iki misalla real iqtisadiyyat sektorlarında bank müəssisələrinin rolunun artırılması perspektivlərinin nə dərəcədə böyük olduğunu görmək olar. Hesab edirik ki yaxın 10-20 il ərzində Qaradağda "tikinti bumu" daim intensivləşmə fazasında olacaqdır.Yeni obyektlərin tikilməsi, istehsal müəssisələrinin salınması, nəqliyyat – logistika infrastrukturunun genişləndirilməsi, sahibkarlıq fəaliyyətinin gücləndirilməsi, biznes subyektlərinin regionda daha fəal iştirakının təmin edilməsində bank kreditlərinin önəmli rol oynayacağını indidən söyləmək olar.

**Real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin edilməsinə yanaşmalar**

Səmərəli maliyyə mexanizminin və alətinin olması kredit alınması üçün əlçatanlığın təmin edilməsi inkişaf drayverlərinin reallaşdırılmasında strateji əhəmiyyət kəsb edir və həlledici faktorlardan sayılır [9]. Hesab edirik ki, Azərbaycanda da məhz belədir və dünya təcrübəsinədən daha səmərəli istifadə edilməlidir. Belə ki, Azərbaycan dünyanın bir hissəsi olmaqla özünün mövcud bank sisteminin - bank sektorunun fəaliyyətini və diqqətini məhz iqtisadiyyat sektorlarının inkişafına, bu sahədə daha çox layihələrin həyata keçirilməsinə, layiqli iş yerlərinin yaradılmasına, əlavə dəyər və maliyyə mənbələrinin formalaşdırılmasına yönəltməlidir. Məhz belə olduğu təqdirdə, ölkədə maliyyə axınları intensivləşər, maliyyə mənbələri daha məhsuldar olar və bank müəssisələrinin rentabelli fəaliyyət göstərməsi üçün əlavə imkanlar yaranar [11]. Eyni zamanda, Azərbaycan yaxın perspektivdə özünün milli iqtisadiyyatının strukturunun gücləndirilməsində qeyri-neft sektorunun potensialından daha geniş şəkildə istifadə etməkdə israrlıdır. Buna görə də hazırda qeyri-neftqaz sektorunun inkişaf perspektivləri ilə bağlı daim dövlət tərəfindən stimullaşdırıcı tədbirlər görülür. Belə ki, dövlət dəstəyi mexanizmləri işlənilir və tətbiq olunur. Ölkədə demək olar ki, iqtisadiyyatın müxtəlif sahələrini özündə əhatə edən azad iqtisadi zonalar, texnoparklar, sənaye parkları, sənaye məhəllələri, aqroparklar və aqrosənaye parkları yaradılmaqdadır. Yaxın perspektivdə sənaye klasterlərinin yaradılacağını da əminliklə söyləmək olar. Artıq Ələtdə azad iqtisadi zonanın reallaşdırılması Azərbaycanda azad iqtisadi zonalar institutunun formalaşdırılmasına və inkişafının sürətləndirilməsinə təkan verməkdədir. Fikrimizcə banklar bu proseslərdə fəal iştirak etməlidir. Özəl sektor subyektlərinin maliyyələşdirilməsi onların qarşısında duran strateji fəaliyyət istiqamətlərinin reallaşdırılmasında zəruri olan bank kreditlərinin ayrılmasında çevik bank kreditləri mexanizmlərinin olması və bank kreditləri paketinin işlənməsi və tətbiqi tələb olunur [13]. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə - Şərqi Zəngəzurda, Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası"nın formalaşdırılması prosesləri gedir [3]. Burada tezliklə investorlar, o cümlədən bank müəssisələri və maliyyə institutlarının nümayəndələri üçün əlverişli şərait yaranacaqdır. Məhz bunun nəticəsində sahibkarların daha fəal şəkildə işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərməsi, istehsal sahələrinin yaradılmasında, rəqabətqabiliyyətli məhsullar istehsal edilməsində iştirakının genişləndirilməsi mümkündür. Bundan əlavə, sahibkarlıq subyektlərinin dünya bazarlarında iştirakının təmin olunması, eyni zamanda yerli bazarın istehlak tələblərinin ödənilməsində daha rəqabətqabiliyyətli, həm də keyfiyyətli məhsulların istehsal olunmasında bank müəssisələrinin rolu kifayət qədər böyükdür. Bank müəssisələrinin cəlbedici kredit mexanizmlərinin olması sayəsində özəl sektor subyektlərinin fəallığını artırmaq mümkündür və istehlak bazarına daha çox çeşiddə, həm də həcmdə istehlak məhsullarının çıxarılması reallaşar.

Yerli istehsalın stimullaşdırılmasında, idxaləvəzedici sahələrinin inkişaf etdirilməsində, idxaldan asılılığın azaldılmasında özəl sektorun rolunun gücləndirilməsi və bununla bağlı əlavə tədbirlərin görülməsi, yeni müəssisələrin yaradılması proseslərində də bank müəssisələrinin davamlı kreditlərinə böyük ehtiyac vardır. Məhz bütün bunlar nəcisində qeyd etmək mümkündür ki, yaxın perspektivdə Azərbaycanda real iqtisadiyyatın kreditləşdirilməsində bank müəssisələrinin rolu xeyli artacaq və bunun üçün mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsi, dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi, dövlətlə özəl sektor arasında olan əməkdaşlığın yeni səviyyəyə qaldırılması və xüsusilə banklarla özəl sektor subyektləri ilə təsərrüfat subyektləri arasında olan qarşılıqlı əlaqələrin genişləndirilməsi, həmçinin investisiya-innovasiya layihələrinin cəlbediciliyinin artırılması tələb olunur [2]. Qeyd edək ki, real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin olunmasında və bununla bağlı tədbirlərin görülməsində işlək maliyyə mexanizmlərinin hazırlanması və tətbiq edilməsi olduqca vacib şərtlərdəndir [4]. Real iqtisadiyyat sahələrinin kredit resursları ilə təmin olunması, kreditlərin faiz dərəcələrinin əlçatan olması və eyni zamanda bu kreditlərdən istifadə edən real iqtisadiyyat subyektlərinin fəaliyyətində rentabellik səviyyəsinin qorunmasına kifayət etməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, biz əvvəldə də qeyd etdiyimiz kimi, bu məsələlər hələ ki, ölkəmizdə kifayət qədər mübahisə doğuran məsələlərdir və demək olar ki, real iqtisadiyyat sahələrinin davamlı şəkildə kreditləşdirilməsi mexanizmləri və bu sahədə fəaliyyət subyektləri üçün cəlbedici maliyyə alətləri olduqca məhduddur. Buna görə də ölkəmizdə maliyyə xidmətləri bazarlarının inkişaf etdirilməsi kontekstində bu məsələlərin həll edilməsi son 10 illikdə kifayət qədər prioritet olmuşdur və bununla bağlı məsələlər dövlət tərəfindən çoxlu sayda tədbirlərin görülməsinə baxmayaraq, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsində ciddi addımlar atmaq hələ ki, müyəssər olmamışdır. Bunun əsas səbəblərindən biri - banklar əsas etibarilə istehlak kreditlərinə daha çox meyilli olmalarıdır. Düzdür son illərdə bu istiqamətdəki çağırışlar, dövlət tərəfindən müəyyən sahələrdə investisiya cəlbediciliyinin yüksəldilməsi, real iqtisadiyyat sahələrinə dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi nəticəsində kredit təşkilatları bu sahələrə əvvəlki illərlə müqayisədə daha çox kredit resursları verməyə başlamışlar. Lakin bu istiqamətdə işlərin intensivləşdirilməsini əminliklə qeyd etmək çətindir. Çünki bununla bağlı məsələlər hələ ki, çox az bir müddətdə intensivləşmişdir və buna baxmayaraq, maliyyə bazarlarının dayanıqlı şəkildə inkişaf etməsini də əminliklə söyləmək qeyri-mümkündür [1]. Əlbəttə, ölkəmizin maliyyə xidmətləri bazarının inkişaf etdirilməsinə müəyyən zaman lazımdır. Belə ki, ölkəmizdə valyuta ehtiyatlarının daha da gücləndirilməsi və artırılması tələb olunur. Hazırki valyuta ehtiyatları kifayət qədər risklərlə bağlıdır və onların ehtiyatları çox da uzunmüddətli perspektivə kifayət etməyə bilər.

Dünya bazarlarında enerjidaşıyıcıların qiymətlərinin əlverişli olduğu dövrlərdə valyuta ehtiyatlarının artırılması prossesləri daha çox intensivləşdirilməlidir. Məhz ölkəmiz güclü valyuta ehtiyatları yaratdıqda, valyuta ehtiyatlarının səmərəli idarə edilməsi hesabına əlavə vəsaitlərin cəlb olunması, eyni zamanda, ölkədə milli valyutanın, yəni manatın sabitliyinə nail olmaq mümkündür. Milli valyutaya qarşı kənar təyziqlərin qarşısının alınmasında təhlükəsizlik yastığı məhz valyuta ehtiyatları hesabına formalaşdırıla bilər. Buna görə də hesab edirik ki, yaxın perspektivdə ölkəmizdə maliyyə xidmətləri bazarının inkişafından məhz real iqtisadiyyat subyektlərinin nə dərəcədə səmərəli şəkildə kreditləşdirilməsi bilavasitə asılı olacaqdır. Bu baxımdan bankların fəaliyyətində mövcud mexanizmlərin və prinsiplərin yenilənməsi, qlobal iqtisadi çağırışlara advekat olan yanaşmaların ortaya qoyulması, müasir dövrün reallıqlarından çıxış etməklə maliyyə xidmətləri bazarının imkanlarının

genişləndirilməsi, kredit resurslarına əlçatan şəkildə müxtəlif xidmət paketlərinin formalaşdırılması və ilk növbədə milli iqtisadiyyatın müxtəlif sahələrinin real maliyyə resursları ilə təmin edilməsi mexanizmlərinin işlənməsi və tətbiqi təmin olunmalıdır [8]. Bu məsələlər həm də işğaldan azad olunmuş ərazilər üçün xeyli xarakterikdir. Bəli, dövlət tərəfindən işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üçün dövlət büdcəsindən məqsədli şəkildə vəsait ayrılır və əvvəldə də biz bunları bildirmişdik ki, artıq 2021 və 2022-ci illər üçün hər il 2.2 milyard vəsait ayrılmışdır və 2023-cü ilin dövlət büdcəsində analoji vəsaitin məbləği 3 mlrd. manat səviyyəsində müəyyənləşdirilmişdir. 2022-ci ildə dövlət büdcəsinə yenidən baxıldıqda 470 mln. manat əlavə vəsait də bu məqsədlər üçün yönəldilmişdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti məcburi köçkünlərin böyük köç qayıdışının təmin etmək üçün məqsədli şəkildə tədbirlər görməkdədir. Sosial və istehsal infrastrukturunun formalaşdırılmasında, kənd və şəhərlərimizin bərpa olunmasında, əhalinin böyük köç qayıdışının təmin edilməsi üçün zəruri şərtlərin yerinə yetirilməsində ardıcıl tədbirlər görülməkdədir. Hazırda işğaldan azad olunmuş ərazilərdə yaşayış massivlərinin salınması, istehsal infrastrukturunun genişləndirilməsi, təhlükəsizlik tədbirlərinin görülməsi, ərazilərin minalardan təmizlənməsi, elektrik enerjisi və digər resursların mobilizasiya edilməsi, təminat xarakterli tədbirlərin görülməsi diqqət çəkir. Bütün bunlar yaxın illərdə işğaldan azad olunmuş ərazilərin ölkənin digər regionlarına, Qarabağ iqtisadiyyatının isə bütövlükdə milli iqtisadiyyata reinteqrasiyasına əlavə imkanlar yaradacaqdır və bunların nəticəsində Azərbaycan bütövlükdə özünün təkmilləşdirilmiş iqtisadi inkişaf modelini formalaşdırmaq imkanları əldə edəcəkdir. Məhz təkmilləşdirilmiş milli iqtisadi inkişaf modeli hesabına ölkəmiz regionda özünün iqtisadi gücünü və qüdrətini daha da artıracaq və Cənubi Qafqazın iqtisadiyyatında daha önəmli rol oynamaqda davam edəcəkdir. Eyni zamanda, türk dünyasının coğrafiyasının birləşməsi baxımından əhəmiyyətli və tarixi tədbirlərin həyata keçirilməsində söz və resurs sahibi olacaqdır. Azərbaycanın təbii ehtiyatları və resursları, neft və qaz kimi qiymətli milli sərvətləri onun dünya bazarlarında uzunmüddətli dövr üçün kifayət qədər maraqlı, həm də cəlbedici bir partnyor-ölkəyə çevrilməsinə imkan verəcəkdir. 2020-ci ilin dekabr ayının 31-dən başlayaraq, Böyük Qarabağ Zəfərindən az bir müddət ərzində Azərbaycanın təbii qazının Avropa bazarına çıxarılması ilə Azərbaycanın Avropa Birliyi qarşısında enerji təhlükəsizliyi partnyoru kimi nüfuzunun artması və ümumilikdə ölkəmizin apardığı siyasətin tamamilə adevkat olması, Avropaya inteqrasiya etmək prioritetləri və bütün bunlar əyani şəkildə özünü büruzə vermişdir.

**Nəticə**

Məhz indiki şəraitdə ölkəmizdə milli iqtisadiyyatın inkişaf etdirilməsi, real iqtisadiyyat sahələrinin kredit əlçatanlığının təmin olunması ölkə iqtisadiyyatının rəqabətinin yüksəldilməsinə və bazar iqtisadiyyatının daha dərin şəkildə ölkəmizdə bərqərar olunmasına əlavə imkanlar yaradacaqdır. Bunlarla bağlı bir sıra tədbirləri qeyd etmək istərdik:

- ✓ Ölkəmizdə real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin edilməsi ilə bağlı daha səmərəli və fərqli mexanizmlər işlənilməli və tətbiq olunmalıdır;
- ✓ Azərbaycanda fəaliyyət göstərən bankların real iqtisadiyyat sahələrinin inkişaf etdirilməsinə münasibətlərin yenilənməsi, bununla bağlı qlobal təhdidlərin nəzərə alınması və qlobal çağırışlar şəraitində kredit əlçatanlığının təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi təmin edilməlidir;
- ✓ Real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin olunmasında önəmli məsələlərdən biri kimi - bank infrastrukturunun inkişaf etdirilməsi, bankların

investisiyayönlü fəaliyyətinin genişləndirilməsi və lazım gəldikdə banklara əlavə kredit resurslarının verilməsi, təsirli tədbirlərin görülməsi tələb olunur;

- ✓ Real iqtisadiyyat sahələrinin intensiv və səmərəli olaraq kreditləşdirilməsi hesabına Azərbaycan iqtisadiyyatı regionun daha dinamik inkişaf edən iqtisadiyyatına malik ölkəsi kimi güclənəcək, eyni zamanda, yaxın perspektivdə regionda inteqrativ əlaqələrin inkişaf etdirilməsinə, türk dünyasının coğrafiyasının birləşdirilməsinə və Avropa-Asiya ölkələri arasında əlaqələrin, xarici ticarət dövriyyəsinin genişləndirilməsinə ciddi töhfələr verəcəkdir.

## Ədəbiyyat

1. Ataşov, B.X. Maliyyə bazarları / B.X.Ataşov – Bakı: Kooperasiya nəşriyyatı, – 2016. – 456 s.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 07.07.2021.
4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı: – 2016, – 59 s.
5. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 yanvar 2004-cü il.
6. Conrad F.J. Azərbaycan: Maliyyə sektorunun qiymətləndirilməsi. Asiya İnkişaf Bankı. – 2012. – 37 s.
7. COVID–19 pandemiyasının dünya iqtisadiyyatına təsiri. http://iqtisadiislahat.org/store//media/2020/Aprel/08042020_covid_dunya.pdf
8. Əhmədov, B. İqtisadiyyatın kredit yükü: "qızıl orta" axtarışında. Bakı: – 2016. – 11 s.
9. Ələkbərov, Ə., Sadıqov E. Müasir dövrdə maliyyə bazarlarında bank resurslarının iqtisadiyyata təsirinin gücləndirilməsi mühüm strateji prioritetdir / Ə.Ələkbərov, E.Sadıqov // Maliyyə, kredit və pul tədavülü məsələləri jurnalı. – 2018. 04 (311) – s. 14-21.
10. Əliyev, M.F. Bankların inkişaf istiqamətləri. Monoqrafiya / M.F.Əliyev. – Bakı: Şərq-Qərb Nəşriyyat evi, – 2011. – 120 s.
11. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, – 2017. № 03, – s. 26-40.
12. Əliyev, Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri // Xəbərlər, AMEA II, №5. 2020.– s.5-12.
13. Əliyev, V.Ə. Azərbaycanın maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ xüsusiyyətlərinin mühüm aspektləri.Bakı: Geostrategiya jurnalı, – 2019. № 5.

***Герай Айдын оглы Алиев***
***докторант Сумгаитского***
***Государственного Университета***

***Теоретико-концептуальные подходы к обеспечению кредитной доступности для субъектов реальной экономики***

***Резюме***

*Целью исследования является определение теоретико-концептуальных подходов к обеспечению кредитной доступности для субъектов реальной экономики в современных условиях. С этой целью раскрыта сущность и значимость развития реальных секторов экономики в условиях глобальных потрясений. Раскрыта важность и стратегическая необходимость усиления роли кредитно-банковских организаций в*

*финансировании и кредитовании субъектов реального сектора. Отмечена эффективность доступных кредитных ресурсов для реализации инновационно-инвестиционных проектов, субъектов реального сектора в нынешних условиях. Рассмотрены концептуальные вопросы и необходимый инструментарии для эффективной организации и реализации кредитных услуг банковских организаций. Подготовлен ряд рекомендаций и предложений по усилению роли банковских организаций в кредитовании субъектов реальной экономики. Методология исследования состоит из общепринятых научных методов синтеза, анализа и обобщения. Кроме того, рассмотрены предложения, научные доводы и мысли различных исследователей по рассматриваемым проблемам, а также общеизвестные подходы к международным финансовым институтам по усилению роли банковских организаций для кредитования субъектов реального сектора.Практическая значимость исследования, в основном, объясняется возможностью разработки и реализации действенных мероприятий по усилению роли банковских организаций в кредитовании субъектов реального сектора, тем самым, способствуя интенсификации развития национальной экономики в целом. Результат исследования заключается в эффективности применения более доступных кредитных услуг со стороны банковских предприятий для реализации намеченных инвестиционно-инновационных проектов субъектов реальной экономики и в подготовке целевых программ по развитию отдельных секторов национальной экономики. Оригинальность и научная новизна исследования объясняется теми обстоятельствами, что в связи с глубокой трансформацией мировых финансовых систем и замедлением финансовых и инвестиционных потоков требуются более эффективные кредитные механизмы и доступный пакет-услуг банковских организаций для субъектов реальной экономики в современных условиях. Обоснована необходимость и важность разработки более доступных кредитных услуг с целью активизации деятельности различных субъектов реальной экономики в нынешних условиях, так же требуется обеспечение более надёжного механизма финансирования реализации намеченной стратегической деятельности субъектов реальной экономики. Рассмотрены перспективы по рассматриваемым проблемам, решению накопившихся проблем в подготовке более эффективных кредитных механизмов и инструментария по облегчению проблем финансирования субъектов реальной экономики в постпандемическом периоде. Подготовлен ряд рекомендаций и даны предложения по рассматриваемым проблемам.*

***Ключевые слова:*** *реальная экономика, кредитные ресурсы, кредитная доступность, банковские предприятия, субъекты реальной экономики, теоретико-концептуальные подходы.*

***Geray Aydin Aliyev***
***doctoral student of Sumgait State University***

### *Theoretical and conceptual approaches to ensuring credit accessibility for real economy entities*

### *Summary*

*The purpose of the research is to determine theoretical and conceptual approaches to ensuring credit accessibility for real economy subjects in modern conditions. The essence and significance of the development of real sectors of the economy in the context of global shocks is revealed for this purpose. The importance and strategic need to strengthen the role of*

*credit and banking institutions in financing and lending to real sector entities is considered. The effectiveness of available credit resources for the implementation of innovation and investment projects, entities of the real sector in the current conditions is noted. Conceptual issues and the necessary tools for the effective organization and implementation of credit services of banking organizations are investigated. A number of recommendations and proposals to strengthen the role of banking organizations in lending to real economy entities are made.The research methodology consists of generally accepted scientific methods of synthesis, analysis and generalization. In addition, the proposals, scientific arguments and thoughts of various researchers on the problems under consideration, as well as well-known approaches to international financial institutions to strengthen the role of banking organizations for lending to real sector entities are considered. The practical significance of the research is mainly explained by the possibility of developing and implementing effective measures to strengthen the role of banking organizations in lending to real sector entities, thereby contributing to the intensification of the development of the national economy as a whole. The result of the research consists in the effectiveness of the use of more affordable credit services by banking enterprises for the implementation of the planned investment and innovative projects of real economy entities and in the preparation of targeted programs for the development of certain sectors of the national economy. The originality and scientific novelty of the research is explained by the circumstances that due to the deep transformation of the world financial systems and the slowdown in financial and investment flows, more effective credit mechanisms and affordable package services of banking organizations for real economic entities in modern conditions are required. The need and importance of developing more affordable credit services is justified in order to intensify the activities of various real economic entities in the current conditions, and it is also necessary to provide a more reliable mechanism for financing the implementation of the planned strategic activities of real economic entities. The prospects for the problems under consideration, solving the accumulated problems in the preparation of more effective credit mechanisms and tools to facilitate the problems of financing real economy entities in the post-pandemic period are considered. A number of recommendations and proposals on the issues under consideration are made in the end of the article.*

***Key words:*** *real economy, credit resources, credit availability, banking enterprises, subjects of real economy, theoretical and conceptual approaches.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 23.12.2022.***
***Çapa qəbul olunub:30.12.2022.***